*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 fevral 2020-ci il № 11 (2429) Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

# Vətənə əsgər olmaqdan qürurluyuq!



*Şahidi olduğumuz Aprel döyüşlərindən artıq dörd il ötür. Vətənimizin mərd oğulları həmin döyüşlərdə təkcə Azərbaycan cəmiyyətinə deyil, dünya ictimaiyyətinə bütün aydınlığıyla sübut etdi ki, torpaqlarımızın hər qarışı uğrunda can əsirgəməyən mübariz ruhlu bir nəsil formalaşıb. Vətən müqəddəsdir, ona görə ki, onu qorumağı qarşısına məqsəd qoyan oğullar ölümdən çəkinmədən döyüşə atılırlar.*

Vətəni sadəcə sevmək yetərli deyil. Onu canından artıq sevməlisən. Daşını, qayasını sevməlisən, gülünü-çiçəyini sevməlisən. Üstündə gəzdiyin, suyunu içdiyin, çörəyini yediyin, havasını udduğun torpaq sevildə Vətən olur. Ölməz şairimiz Məmməd Araz əbəs yerə demirdi: "Vətən mənə oğul desə, nə dərdim, mamır olub qayasında bitərdim".

Aprel döyüşlərindən sonra ezamiyyətdə olduğum hərbi hissələrdə söhbətləşdiyim bütün əsgərlər bir ağızdan deyirlər ki, bizlər də kaş həmin döyüşlərin iştirakçıları olardıq. Düşmənə gücümüzü sübut edən Aprel döyüşləri bir həqiqəti aydınlaşdırdı: Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrinin intizarındadır. Prezident, Ali Baş Komandan İlham Əliyev də bütün tədbirlərdə bəyan edir ki, üzləşdiyimiz Qarabağ münaqişəsinin sülh yolu ilə həlli baş tutmayacaqsa, Azərbaycan Ordusu torpaqlarımızı azad etməyə hazırdır.

Bu gün hər kəs əminliklə deyə bilər ki, müharibə baş tutarsa, qalibiyyət bizimdir. Çünki son illərdə Azərbaycanın həm güclü hərbi potensialı yaranıb, həm də ordusunun yüksək döyüş əhval-ruhiyyəsi formalaşıb. Bir-birinin ardınca davam edən genişmiqyaslı təlimlər ordunun şəxsi heyətinin döyüş vərdişlərini möhkəmləndirib. Təlimi ordunun akademiyası hesab edən sərkərdələr qətiyyən yanılmırlar, axı döyüş şəraitinə uyğunlaşdırılaraq keçirilən təlimlər şəxsi heyətin bütün bacarıqlarını üzə çıxarır. Hər təlimdən uğurla çıxan əsgər və zabitlərimiz qazandıqları vərdişləri sübuta yetirmək üçün fürsət axtarırlar. Əlbəttə, belə yüksək əhval-ruhiyyədə olan döyüşçülərin qarşısında düşmən heç vaxt tab gətirə bilməz.

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinin şəxsi heyəti də dövlətimizin orduya göstərdiyi qayğıya cavab olaraq döyüş hazırlığını gündən-günə artırır. Cavabdeh zabitlə birgə səngərlərə üz tuturuq. Hər addımda qürurlu görkəmləri ilə diqqətimizi çəkən Vətən oğulları ilə görüşürük. "Vətənimi qorumaqdan qürurluyam!" kəlməsini özünü təqdim edən əsgər səsləndirəndə, doğrudan da, bu gün torpaqlarımızın vətənpərvər gənclər tərəfindən etibarlı qorunduğuna əmin olursan.

Vətənimizin keşiyində dayanan əsgərlərimizin hamısını iqlim şəraitindən asılı olmayaraq xoş əhval-ruhiyyədə görməkdən də qürur duyuram. Gənc zabit Vasif Quluzadə söhbət zamanı bildirir ki, bölmələrə təyin edilən əsgərlər qısa vaxtda xidməti şəraitə uyğunlaşırlar. "Gənclərin yüksək fiziki və mənəvi-psixoloji hazırlığı onlara sərt iqlim şəraitində belə xidmət etməyə imkan verir. Çətin, təhlükəli mövqelərdə xidmət etmək onlara cəsurluq, mərdlik, dostluq kimi mənəvi keyfiyyətlər aşılayır. Ən başlıcası isə əsgər üzərinə düşən vəzifənin müqəddəsliyini dərk edir və məsuliyyət hissi ilə xidmət edir. Azərbaycan əsgəri Vətən qarşısındakı vəzifə borcunun nə qədər şərəfli olduğunu yaxşı bilir".

Zabit haqlıdır, bu gün yüksək mənəvi dəyərlər ruhunda yetişən gənclərimiz Vətənə sədaqətlə xidmət edir, Vətən sevgisini hər şeydən uca tuturlar. Söhbətinə davam edən zabit deyir ki, döyüş növbəsindən sonra asudə vaxtlarda əsgərlərlə xalqımızın tarixi barədə geniş söhbətlərimiz olur. Azərbaycanda dövlətçilik tarixinin müxtəlif dövrləri barədə söhbətlərə əsgərlərin maraqla diqqət yetirdiklərini deyən zabit qeyd edir ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ordunun döyüş qabiliyyətinin yüksəlməsində əhəmiyyətli amillərdən biridir. "Əsgərlər nəyin, hansı məqsədin uğrunda mübarizə apardıqlarını çox yaxşı bilirlər. Onlar başa düşürlər ki, özgənin bir qarış torpağında gözümüz yoxdur, yalnız doğma ərazilərimizi işğaldan azad etmək uğrunda səfərbər olunmuşuq".

**(Ardı 2-ci səhifədə)**

# HHQ-nin hərbi hissəsində yeni obyektlər istifadəyə verilib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 11-də Müdafiə Nazirliyinin rəhbər heyəti HHQ-nin hərbi hissəsində yeni inşa edilmiş hərbi obyektlərin açılışında iştirak edib, burada yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov ərazidəki iki mərtəbəli qərargah binası, əsgər yataqxanası, sinif otaqları, anbarlar, sıra meydanı, nəzarət-buraxılış məntəqəsi, eləcə də digər xidməti və inzibati obyektlərdə olaraq görülən işlərin keyfiyyəti ilə tanış olub.

Tikintisi davam edən digər obyektlərə də baxış keçirən Müdafiə naziri işlərin keyfiyyətli başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.



## Azərbaycanın Müdafiə naziri Brüsselə səfər edəcək

Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasına töhfə verən ölkələrin Müdafiə nazirləri səviyyəsində NATO-nun Mənzil-Qərargahında keçiriləcək iclasda iştirak etmək üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənov fevralın 12-də Brüssel şəhərinə yola düşəcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 13-də keçiriləcək iclasda Əfqanıstandakı təhlükəsizlik və siyasi vəziyyət, əldə olunan son nailiyyətlər və maraq doğuran bir sıra digər mövzular ətrafında geniş müzakirələr aparılacaq.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**10 fevral 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**11 fevral 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Vətənə əsgər olmaqdan qürurluyuq!

(Əvvəli 1-ci səhifədə)

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş İlkin Hüseynovla həmsöhbət oluruq. Döyüş növbəsinə gedəcək şəxsi heyətə təlimat verən hərbi qulluqçunun işində məsuliyyətli olduğu və vəzifələrinin öhdəsindən uğurla gəldiyi sezilir. Hərbi qulluqçu peşəsinə ürəkdən bağlı olduğunu deyir:

"Hələ əsgər kimi xidmətə başlayanda qəti qərara gəlmişdim ki, könüllü olaraq xidmətimi davam etdirəcəyəm. Hərbçi sənətini seçmək müqəddəs peşə sahibi olmaq deməkdir, axı Vətənə xidmətdən şərəfli heç nə yoxdur. Fikrimi ailəmə bildirəndə sevinmişdilər, "səninlə fəxr edirik" demişdilər. Artıq neçə illərdir ordu sıralarında qulluq edən hərbçi kimi cəbhə xəttində xidmətin bütün xüsusiyyətlərini bölmənin şəxsi heyətinə böyük həvəslə aşılayıram. Əsgərlərin də Vətənə bağlılığı, mənəvi dəyərləri bizi sevindirir, ruhlandırır. Hər biri verilən tapşırığı bacarıqla yerinə yetirir, nümunəvi xidməti ilə seçilir. Hiss edirsən ki, hər birinin ürəyi Vətən sevgisi ilə döyünür."



İndi gənclərimiz hərbi peşələrə böyük maraq göstərir, qəhrəmanlıq, kişilik peşəsini seçmələri ilə fəxr hissi duyurlar. Bununla da böyüməkdə olan nəsil Ulu Öndərimiz, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin irsinə, ideyalarına sadiq olduqlarını sübut edirlər.

Döyüş növbəsindən qayıdan əsgər Fərid Nuruzadə ilə söhbət etmək imkanı qazanırıq. Əsgərə belə bir sual ünvanlayırıq.

"Biləsuvarlı qəhrəmanlarımızdan kimi tanıyırsan?". Əsgər tərəddüd etmədən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adını iftixarla çəkir. Mübariz kimi qəhrəman oğulların onun qəlbində daim yaşadığını və onların şərəfli ömür yolunu, qəhrəmanlıqlarını öz həyat yoluna nümunə bildiyini deyir. "Orta məktəbə qədəm basdığımız ilk gündən müəllimlərimiz bizə vətənpərvərliyi, Vətəni sevməyi aşılayıb. Qəhrəmanlardan söz düşəndə Mübariz İbrahimovun adını çəkiblər və onun həyatından nümunə götürməyi öyrədiblər. Aprel döyüşləri də göstərdi ki, bu gün cəmiyyətimizdə qəhrəmanlıq, fədakarlıq göstərən gənclərimizin sayı çoxdur. Biz də onların davamçıları olaraq döyüş meydanında şücaət göstərmək üçün Ali Baş Komandanın döyüş əmrini gözləyirik".

Əsgər Murad Bayramov deyir ki, üzərində boy atdığımız Vətənə övladlıq borcunu şərəf və məsuliyyətlə yerinə yetirmək hər kəsin borcudur. "Bu gün Vətənimizin bacarıqlı əsgəri kimi formalaşdığım üçün öncə vətənpərvər komandirlərimə və aylar, həftələr, günlər ərzində torpaqlarımızın keşiyində çiyin-çiyinə dayandığım silahdaşlarıma borcluyam. Ordu həyatı, sözün həqiqi mənasında, bir kişilik məktəbidir və bu yolda sınaqlarda bərkidiyim üçün özümü xoşbəxt sanıram".

Əsgəri xidmət dövründə gənclərə hərbi biliklərlə yanaşı, bir çox müsbət keyfiyyətlər aşılanır. Gənclər həm bacarıqlı əsgərlər kimi, həm də cəmiyyətə faydalı vətəndaşlar kimi formalaşırlar. Onlara tapşırılan vəzifələrin əhəmiyyətini dərindən dərk edərək məsuliyyətlə xidmət edirlər. Belə gənclərdən biri - əsgər Səlim Əzizov "Vətənə əsgər olmaqdan qürurluyam", - deyir. "Səngərdə dayanmaq isə ikiqat qürurludur. Burada torpaqlarımıza keşik çəkirik. Mənim üçün bundan şərəfli və müqəddəs tapşırıq yoxdur. Vətən qoruyucusu olmağın sevincini və qürurunu daim hiss edirəm. Hər an üzərimə düşən vəzifələrin öhdəsindən uğurla gəlməyə çalışıram. Düşmən qarşısında mətin dayanmışıq və əsgər dostlarımla birgə onlara qan uddurmağa hər an hazırıq".

...Səngər boyu başqa əsgərlərlə də görüşüb arzu və istəklərini qələmə alırıq. Bu yerlərdən, qüdrətli ordumuzun mətin keşikçilərindən ayrılmaq istəmirik. Onlarla söhbətlərimiz xoş ovqat yaradır. Əgər düşmən tərəfi sülh yolu ilə yurd yerlərimizdən çıxmasa, Vətənimizi qoruyan belə oğulların hesabına torpaqlarımızın işğaldan azad ediləcəyinə inamımız daha da artır. Elə bu inam hissi ilə onlardan ayrılırıq...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonunda 2019-2020-ci dərs ilinin birinci yarımilinin yekunlarına dair müşavirə keçirilib

*Naxçıvan Qarnizonu tam orta məktəbində və Heydər Əliyev adına Hərbi Liseydə 2019-2020-ci dərs ilinin birinci yarımilinin yekunlarına dair müşavirə keçirilib.*





Naxçıvan Qarnizonu tam orta məktəbində keçirilən müşavirədə məktəbin direktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi Natiq Əhmədov və digər çıxış edənlər məktəbdə yaradılmış müasir tədris şəraitindən, hər il qəbul imtahanlarında qazanılan yüksək nəticələrdən və uğurlardan danışıblar.

Müşavirədə Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev bildirib ki, "Təhsil millətin gələcəyidir" deyən ümummilli lider Heydər Əliyevin siyasi kursu bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də uğurla davam etdirilir. Naxçıvan Qarnizonu tam orta məktəbində əsaslı təmir işlərinin aparılması, maddi-texniki bazanın daim təkmilləşdirilməsi və təlim-tədris üçün əlverişli şəraitin yaradılması növbəti qayğının ifadəsidir.

General-leytenant Kərəm Mustafayev 2019-2020-ci dərs ilinin birinci yarımilini təhlil edərək ikinci yarımildə qarşıya qoyulan əsas tapşırıqları diqqətə çatdırıb. Vurğulanıb ki, məktəbdə tədrisin səmərəliliyinin artırılması üçün IX-XI sinif şagirdləri və onların valideynləri ilə maarifləndirici söhbətlər aparılmalı, buraxılış imtahanlarına hazırlıq işləri görülməklə bərabər, imtahanqabağı məşğələlər təşkil edilməli, zəif nəticə göstərən şagirdlər xüsusi nəzarətə götürülməli, fiziki hazırlığa nəzarət gücləndirilməli və şagirdlərin yarışlarda iştirakı təmin edilməli, "Oxunması zəruri olan kitablar"ın mütaliə və müzakirəsi, eləcə də müəllimlər üçün yeni təlim texnologiya və metodlarından istifadə etməklə seminar və treninqlər keçirilməlidir.

Heydər Əliyev adına Hərbi Liseydə keçirilən müşavirədə Hərbi liseyin rəisi general-mayor Məhəmməd Həsənov və digər çıxış edənlər pedaqoji kollektivin peşəkarlığı nəticəsində kursantların təhsilində və intizamında uğurlar qazanıldığını qeyd ediblər.

Müşavirədə çıxış edən Naxçıvan Qarnizonunun rəisi qeyd edib ki, Heydər Əliyev adına Hərbi Lisey Ümummilli Liderimizin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan kimi gələcəyin vətənpərvər, savadlı və peşəkar zabitlərinin yetişdirilməsi yolunda inamlı addımlar atır. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin diqqət və qayğısı ilə Hərbi lisey mühüm təşkilatlanma və inkişaf yolu keçib, burada nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıb.

General-leytenant K.Mustafayev dərs ilinin ikinci yarımilində Hərbi liseyin yerinə yetirməli olduğu əsas tapşırıqları diqqətə çatdıraraq bildirib ki, gələcəyin zabitlərinin peşəkar səviyyədə hazırlanması üçün tədrisdə yüksək nəticələr göstərmiş kursantlarla mütəmadi olaraq müvafiq işlər aparılmalı, liseyin qabaqcıl müəllimlərinin cəlb edilməsi ilə dərsdənkənar və dərnək məşğələlərinin səmərəliliyi artırılmalı, kursantların asudə vaxtlarında viktorina və əyləncəli oyunlar keçirilməli, dərslərdə əyani vəsaitlərdən, elektron lövhə, kompüter və laboratoriyaların imkanlarından səmərəli istifadə olunmalıdır.

Vurğulanıb ki, fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilmiş müşavirədə qarşıya qoyulmuş vəzifələrin icrası və idmanın kütləviliyinə nail olunması məqsədi ilə Hərbi liseydə də fiziki hazırlıq dərslərinin keyfiyyəti artırılmalı və kursantların yarışlarda iştirakı təmin edilməlidir.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Pakistan hərbi nümayəndə heyəti Bakıda səfərdədir

*Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının Hərbi Təhsil və Hazırlıq İdarəsinin baş direktoru general-mayor Saqib Mehmud Malikin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdədir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 10-da Pakistan nümayəndə heyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında olub. Qonaqları salamlayan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov onlara Azərbaycan Ordusunda həyata keçirilən islahatlar, hərbi təhsil sistemində dünyanın aparıcı ölkələrinin qabaqcıl təcrübəsinin tətbiqi barədə məlumat verib.

Görüşdə, həmçinin ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Küveytdə növbəti erməni təxribatının qarşısı alınıb

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bu günlərdə Küveyt Universitetində təşkil olunan sərgi çərçivəsində Ermənistan tərəfinin təxribata əl atdığı barədə məlumatla bağlı AZƏRTAC-ın sorğusunu cavablandırıb.

Leyla Abdullayeva bununla bağlı deyib: "Fevralın 9-da Küveyt Universitetinin Neft və mühəndislik fakültəsi tərəfindən təşkil olunan mədəniyyət festivalının açılışı olub. Əsasən universitetdə təhsil alan tələbələrin təmsil etdiyi 30-a yaxın dövlətin səfirliyinin, o cümlədən Azərbaycanın Küveytdəki səfirliyinin qatıldığı bu festival çərçivəsində ölkəmizin mədəniyyəti, turizm imkanları və s. barədə məlumatlar, nəşrlər, suvenirlər təqdim olunub. Festivala ölkəmizin Küveytdəki səfirliyinin əməkdaşları ilə yanaşı, "Vətənsevər" Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin üzvləri qatılıblar. Ermənistan stendində bu ölkənin səfirliyi tərəfindən Azərbaycana qarşı təxribat törədilərək, ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz qurumun təşviq edilməsi cəhdi aşkarlanıb. Səfirliyimizin əməkdaşlarının məsələ ilə əlaqədar müdaxiləsindən sonra Ermənistan stendindəki saxta "xəritələr" aradan qaldırılıb və universitetin rəhbərliyi baş vermiş insidentə görə Azərbaycan tərəfindən üzr istəyib.

Təəssüflə qeyd etmək istərdik ki, işğalçı Ermənistan tərəfi müxtəlif beynəlxalq tədbirlərdə, o cümlədən sərgi və festivallarda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaratdığı qeyri-qanuni rejimi təbliğ etməyə cəhdlər göstərir. Lakin bu kimi cəhdlər uğursuzluğa düçardır. Belə ki, bu cür qanunsuz təbliğat cəhdləri tərəfimizdən aşkarlandığı halda dərhal onların qarşısı alınır".

## Murmansk vilayətinin qubernatoru əslən Bakıdan olan veteranı 100 illik yubileyi münasibətilə təbrik edib

Murmansk vilayətinin qubernatoru Andrey Çibis Böyük Vətən müharibəsi veteranı Aleksey Yeroşini anadan olmasının 100 illiyi münasibətilə təbrik edib.

"Azərbaycan" Mədəniyyət Mərkəzi" Murmansk vilayət ictimai təşkilatının və Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) yerli nümayəndəliyinin mətbuat katibi Əlihüseyn Şükürov AZƏRTAC-a bildirib ki, Aleksey Yeroşin 1920-ci il fevralın 7-də Bakıda anadan olub. O vaxt Yeroşinlər Xəzər dənizindəki kiçik Artyom (hazırda Pirallahı) adasında yaşayırdılar. 1940-cı il martın 22-də Aleksey Yeroşin ordudan əvvəl hərbi hazırlığa çağırılıb. 1941-ci il iyunun 10-da Suxumi hərbi məktəbinin məzunu leytenant A.Yeroşinə pulemyotçular bölməsinə komandirlik etibar edilib və o, Xarkov hərbi dairəsinə xidmətə göndərilib. Gənc zabit artıq yolda ikən müharibənin başlandığını öyrənir. Axtırka şəhərində o, pulemyotçular bölməsini qəbul edir və 81-ci diviziyanın 323-cü atıcılıq alayının tərkibində Cənub-Qərb cəbhəsinə yollanır.

Qubernator yubilyara Rusiya Prezidenti Vladimir Putinin şəxsi təbrikini və "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 ili" yubiley medalını təqdim edib. Veterana, həmçinin xatirə məktubu və hədiyyə verilib.

# Azərbaycan Ordusunda andiçmə mərasimi keçirildi



*Fevralın 8-də Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, eləcə də digər təminat hərbi hissələrində təşkil edilmiş mərasimlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni ifa edildi. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə təbrik məktubu oxundu. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul etdilər. Andiçmə mərasimlərində hərbi hissələrin komandanlığı, şəhid ailələrinin üzvləri, yerli icra orqanları, ictimaiyyət nümayəndələri, veteranlar və əsgər valideynləri iştirak etdilər.*

Səhər saatlarında "N" hərbi hissəsinin qarşısında canlanma hiss olunurdu.

Polkovnik Siyavuş Mustafayevin qarşılanması ilə təntənəli mərasim başladı. Çıxış üçün söz alan zabit bildirdi ki, bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində gündən-günə möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan Ordusunun şəxsi heyətinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirən polkovnik S.Mustafayev qeyd etdi ki, bu diqqət və qayğını öz həyatında hiss edən hərbi hissəmizin şəxsi heyəti öhdəsinə düşən döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazırdır.

Gənc əsgər Tural Kərimli və matros Heydər Musayev qeyd etdilər ki, Vətən yolunda şəhid olmuş oğulların qanı ilə yazılmış Hərbi andı qəbul edərək Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqlar: "Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş Azərbaycan oğullarının yolunu şərəflə davam etdirəcək, Aprel və Günnüt zəfərləri zamanı Azərbaycan Ordusunun düşmən üzərində əldə etdiyi qələbəni daimi etmək üçün hər an əldə silah hazır olacağıq".

"Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğını bu gün burada əyani şəkildə gördük", - deyə əsgər anası Səadət Sadıqova bildirdi. - Hər birimiz bir valideyn kimi övladlarımızın təmiz və rahat şəraitdə xidmət etməsinə çox sevinirik. Belə şəraitdə xidmət edən əsgər Vətən qarşısında olan borcunu layiqincə yerinə yetirməlidir. Azərbaycan xalqına Böyük Qələbəni bəxş etməlidir.

Əsgər atası Vüqar Mahmudov da Azərbaycan Ordusunun bugünkü qüdrətindən qürur duyur, inanır ki, Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz hər bir tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarındadır. Əsgər atası qeyd etdi ki, düşmən torpaqlarımızdan çəkilməsə, yaşının bu dönəmində lazım gələrsə, yenidən hərbi libasını geyinməyə, keçmiş döyüş yoldaşları ilə çiyin-çiyinə torpaqlarımızın azadlığı uğrunda savaşlara qatılmağa hazırdır.

Tədbirin sonunda valideynlər əsgərlərin sosial-məişət şəraiti ilə tanış olmaq üçün əsgər yataqxanası və yeməkxanası ilə tanış oldular. Yeməkxanada milli mətbəximizin dadlı təamlarını dadan valideynlər əsgərlər üçün yaradılmış şəraitdən öz razılıqlarını bildirdilər.

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

"N" hərbi hissəsində də gənc əsgərlərin andiçmə mərasimi keçirildi.

Mərasim ümummilli lider Heydər Əliyevin büstünün önünə gül dəstələrinin qoyulması ilə başladı. Sonra şəxsi heyətin təntənəli mərasimə hazır olması barədə general-mayor İlqar Lətifova məruzə olundu.



Mərasimdə çıxış edən general-mayor İ.Lətifov bütün şəxsi heyəti salamlayaraq, gənc əsgərləri Vətənin müdafiəçilərinin sıralarına qatılması münasibətilə təbrik etdi. Zabit bildirdi ki, ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi böyük quruculuq işləri, Vətənimizin qarşısında əvəzsiz xidmətləri hər birimiz üçün örnəkdir. "Bu gün şəxsi heyətimiz Ulu Öndərin ideyalarını əsas tutaraq Vətən qarşısında borclarını ləyaqətlə yerinə yetirir. Hazırda dahi rəhbərin siyasi kursu ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordumuz ən müasir silah, texnika və digər avadanlıqlarla təmin olunaraq dünyanın aparıcı orduları səviyyəsinə yüksəlib. 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt zəfəri bir daha sübut etdi ki, Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı düşməndən azad etməyə tam qadirdir. Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazırıq."

Əsgər valideyni Hümbət Əsədov çıxış edərək bildirdi ki, Ulu Öndər tərəfindən əsası qoyulan ordumuz bu gün dünyanın ən güclü orduları sırasındadır. "Son illər ordu quruculuğunda qazanılan nailiyyətlər, ordumuzun döyüş qabiliyyətinin güclənməsi, düşmən təcavüzünün qarşısını mərdliklə almağa qadir olması bir daha gücümüzü bütün dünyaya göstərdi. Sizə əmanət edilən Vətənimizi şərəflə qoruyun, xidmət etdiyiniz hərbi hissəni və Azərbaycan Ordusunu ləyaqətlə təmsil edin. Vətənə layiqli övlad olun. Vətənin müdafiəsində mərdliklə dayanın. İşğal altında olan torpaqlarımızı azad etmək üçün təlim və məşqlərdə fəal iştirak edin. Siz gələcəyin qəhrəmanlarısınız. Biz sizlərdən yalnız Qələbə sevinci gözləyirik, Lələtəpədə, Bayraqtəpədə dalğalanan Azərbaycan bayrağının Şuşada, Kəlbəcərdə, Laçında... ucalmasını və dalğalanmasını istəyirik."



Əsgərlər adından çıxış edən Toğrul Tağıyev dedi ki, bu gün biz Hərbi andı qəbul edərək Azərbaycan Ordusunun tam hüquqlu əsgərləri sıralarına daxil olduq. "Hərbi xidmətə gəldiyim ilk gündən komandirlərimizin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Onlar biz gəncləri əsl döyüşçü kimi yetişdirməklə bərabər, ölkəmizin gələcəyi üçün sağlam düşüncəli vətəndaşlar hazırlayırlar. Biz də daha yaxşı xidmət edəcək, döyüş hazırlığımızı və fiziki gücümüzü artıracaq, taktiki cəhətdən cəld və çevik, atıcı kimi mahir nişançı, mənəvi-psixoloji cəhətdən yüksək hazırlıqlı, cəsur əsgər olacaq, əcdadlarımızın ənənələrini davam etdirəcək, qəhrəmanlarımızın döyüş təcrübələrindən istifadə edərək şəhidlərimizin qisasını almaqla yanaşı, işğal altında olan torpaqlarımızın azad edilməsi üçün qururla mübarizə aparacağıq."

Andiçmə mərasimi döyüş bayrağının sıra meydanından aparılması və şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə bitdi.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

Bu soyuq fevral günü gənc əsgərlərin yaddaşında dərin iz qoyacaq. Çünki bu gün ordu sıralarında ilk addımlarını atan əsgərlər Hərbi andı qəbul edirdilər. Həm əsgərlərin, həm də onların bu əlamətdar günlərinə şahidlik edən valideynlərin üzləri gülürdü. Baxışlardan bəxtəvərlik qarışıq xoşbəxtlik də yağırdı.

Sıra meydanına masalar düzülmüşdü. Masaların üstünə üçrəngli bayrağımız səliqə ilə sərilmişdi. Daim könlümüzü rövnəqləndirən, qürur hissimizi artıran bayrağımızın üstünə isə qarşıdakı Qarabağ döyüşlərində bizə böyük qələbələr qazandıracaq müxtəlif təyinatlı silahlar qoyulmuşdu.

Andiçmə mərasiminin başlanmasına dəqiqələr qalıb. Şəxsi heyət sıra meydanında yerini tutub. Çox keçmir ki, sıra meydanında canlanma yaşanır. Zabit Səxavət Quluyevin əmri ilə gənc əsgərlər sıradan çıxaraq nizami addımlarla meydana qoyulmuş masalara yaxınlaşırlar. Burada onlar öz yerlərini tutan kimi bir əllərini əsgər yoldaşlarının çiyninə, bir əllərini isə silahların üstünə qoyaraq gur səslə Hərbi andı qəbul edirlər. Vətənə sədaqət andı içən əsgərlərin üz-gözündən məğrurluq və qətiyyət yağırdı. Bu qətiyyət, bu məğrurluq xidmət illərində onları uğurlara və qələbələrə qovuşduracaq.

Həyəcan dolu dəqiqələr bir-birini əvəz edir. Gənc əsgərlər fərəhlə Hərbi andı qəbul edirlər. Üzlərdəki təbəssüm, gözlərdəki sevinc bir az da artıb. Kapitan Səxavət Quluyevin əmri ilə gənc əsgərlər sıraya qayıdırlar.

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Ordusunda andiçmə mərasimi keçirildi

**(Əvvəli 4-cü səhifədə)**

Gənc əsgərləri təbrik edən general-mayor Mayis Bərxudarov dedi ki, Azərbaycan Ordusu gündən-günə güclənir, qüdrətini artırır. "Siz çox xoşbəxt gənclərsiniz ki, belə güclü bir ordunun sıralarında xidmət edirsiniz. Hərbi hissələrimiz yenidən tikilib şəxsi heyətin ixtiyarına verilir. İndi zabit və əsgərlərimizin yüksək səviyyədə xidmət etmələri üçün hərtərəfli şərait yaradılır. İnkişaf, irəliləyiş göz qabağındadır. Biz bütün bunlara görə ümummilli liderimiz Heydər Əliyevə və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarıq. Azərbaycan əsgəri Aprel döyüşlərində gücünü, qüdrətini bir daha düşmənə göstərdi. Bu uğurlu döyüşlər bir daha sübut etdi ki, Azərbaycan Ordusu güclüdür, öz torpağını erməni işğalçılarından azad etməyə qadirdir. Biz bu gün Ali Baş Komandanın, Müdafiə nazirinin əmri ilə torpaqlarımızı erməni işğalçılarından azad etməyə hazırıq. İnanıram ki, qarşıdakı döyüşlərdə qələbə bizimlə olacaq. Gün gələcək ki, bu gün hərbi hissənin sıra meydanından asılmış üçrəngli bayraqlarımız Şuşada, Xankəndidə dalğalanacaq! Bu gün sırada dayanan əsgərlər valideynlərinin yanına qalibiyyətlə dönəcəklər."

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Ağcabədi rayon şöbəsinin sədri İsmayıl Məhərrəmov, əsgər atası Sahib Həsənov və başqaları da söz alaraq gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik etdilər, xidmətlərində uğurlar arzuladılar. Gənc əsgərlər adından çıxış edən əsgər Miryusif Əsgərov bildirdi ki, bu gün içdikləri anda xidmətlərinin sonunadək sədaqətli qalacaq, hərbi texnika və silahların sirlərinə dərindən yiyələnəcək, torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanacaqlar.

Mərasim şəxsi heyətin orkestrin ifa etdiyi hərbi marş və vətənpərvərlik mahnılarının sədaları altında təntənəli addımlarla tribuna önündən keçməsi ilə yekunlaşdı.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**





Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində də gənc əsgərlərin Hərbi andiçmə mərasimi keçirildi. Geniş ərazini əhatə edən hərbi hissənin sıra meydanında gənc əsgərlər Vətənə sədaqət andı içmək münasibətilə düzülərək bütün diqqətlərini tribunaya doğru yönəltmişdilər.

Mayor Rasim Amirmetov gənc əsgərlərin Hərbi andiçmə mərasiminin açıq elan olunduğunu bildirdi.

Polkovnik Babək Səmidli bu günün əhəmiyyətindən danışaraq gənc əsgərləri və onların valideynlərini bu sevincli, unudulmaz və əlamətdar gün münasibətilə təbrik etdi. Doğma Vətənimiz Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, işğal edilmiş torpaqlarımızın azad olunması kimi müqəddəs vəzifələrində gənc əsgərlərə uğurlar arzuladı.

Müdafiə nazirinin gənc əsgərlərə ünvanladığı təbrik məktubu oxundu. Məktubda deyilirdi: "Bu gün sizin həyatınızda əlamətdar və yaddaqalan bir gündür. Siz bu gün təntənəli surətdə and içərək Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacağınıza, bundan ötrü qanınızı və canınızı əsirgəməyəcəyinizə söz verirsiniz. Sizin müqəddəs əsgəri borcunuzu vicdanla yerinə yetirməyinizə inanır və əmin olduğumu bildirirəm ki, Vətənə, xalqa, dövlətə sədaqətli olacaq, hərb işini müasir tələblər baxımından öyrənəcək, Azərbaycan əsgəri adını nümunəvi xidmətinizlə doğruldacaqsınız."

Tədbir gənc əsgər valideyni Şamil Əliyevin təbrik çıxışı ilə davam etdi: "Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ordumuz dünyanın ən güclü orduları sırasına daxil edilib. Ordumuzun maddi-texniki təminatı gündən-günə möhkəmlənir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, xalqla ordunun birliyi dövləti qüdrətli edir. Bəli, biz Aprel döyüşlərində bunun bir daha şahidi olduq. Ordumuzun dörd il öncə Aprel döyüşlərindəki uğurlu qələbəsi bir daha təsdiq etdi ki, bizim güclü ordumuz var. İnanırıq ki, o ordunun gücüylə Ali Baş Komandanımızın rəhbərliyi altında düşmən işğalında olan torpaqlarımız tezliklə azad olunacaq. Bir daha əsgərlərimizi əlamətdar gün münasibətilə təbrik edir, onların Vətənə, torpağa sədaqətlə xidmət edərək, valideynlərinə, el-obasına başucalığı gətirmələrini arzulayıram. Bəli, son söz Azərbaycan əsgərinindir. Yaşasın, Azərbaycan! Yaşasın, xalqımız! Hörmətli valideynlər, sizi də övladınızın Hərbi andı qəbul etməsi münasibətilə təbrik edirəm, gözünüz aydın olsun. Tanrı onları qorusun."

Gənc əsgərlər adından Şahmar İmanov danışaraq bu günün onların həyatında yaddaqalan və əlamətdar bir gün olduğunu dedi: "Bir neçə dəqiqə bundan öncə Hərbi andı qəbul edən biz gənc əsgərlər, ana Vətənimizin rəşadətli müdafiəçiləri sırasına daxil olduq. Bu o deməkdir ki, artıq biz də özümüzü doğma Azərbaycanımızın müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində duran Azərbaycan əsgəri adlandıra bilərik. Bu ad nə qədər fəxrlə səslənirsə, bir o qədər də bizim məsuliyyət hissimizi artırmağa sövq edir. And içdiyimiz kimi, bundan sonra da Vətənimizin keşiyində ayıq-sayıq dayanmalı, istənilən an əldə silah onun müdafiəsinə qalxmağa, bu yolda canımızı və qanımızı belə əsirgəməməyə hazır olmalıyıq."

Gənc əsgərlərin Hərbi andiçmə mərasimində kəşfiyyat qrupunun hazırladığı nümunəvi çıxışlar sürəkli alqışlarla qarşılandı.

Tədbirin sonunda ilk praktiki atış zamanı fərqlənən bir qrup əsgər fəxri fərmanlarla və təşəkkür məktubları ilə təltif edildi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Hərbi andiçmə mərasimi ordu sıralarında xidmət edən hər bir gəncin həyatında yaddaqalan əlamətdar hadisələrdəndir. Bu unudulmaz gün ordu sıralarına yeni qədəm qoyan oğullarımız və onların valideynləri, doğmaları üçün də mötəbər günlərdən biridir.

Əvvəlcə ulu öndər Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi ziyarət edildi, önünə gül dəstələri qoyuldu.

Hərbi andı qəbuletmələri münasibətilə əsgərlərimizi təbrik edən general-mayor Xəqani Cəbrayılov qeyd etdi ki, əsası Ümummilli Lider tərəfindən qoyulan və bu gün Heydər Əliyev kursunun flaqmanı,



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında güclü və qüdrətli ordunun formalaşması fonunda mühüm işlər görülür. Gündən-günə inkişaf etdirilən maddi-texniki bazanı, müasir standartlara cavab verən hərbi hissələrin istifadəyə verilməsini müasir ordu quruculuğu sahəsində görülən işlərin bir hissəsi olduğunu vurğulayan zabit, arsenalımıza daxil olan yeni nəsil silahların alınmasından və ordumuzun döyüş qabiliyyətinin artırılmasından danışdı. General-mayor Xəqani Cəbrayılov üzünü valideynlərə tutub bildirdi ki, mərasim başa çatdıqdan sonra qonaqlar onların övladları və yaxınları olan əsgərlərimiz üçün hərbi hissədə yaradılan şəraitlə yaxından tanış ola bilərlər. "Qüdrətli dövlətin əsas atributlarından biri onun müstəqilliyini, ərazi bütövlüyünü qoruya biləcək ordusunun olmasıdır. Ordunun gücü isə təkcə müasir silah və texnikada deyil, xalqdan gələn dəstəkdə, gənclərimizin əzm və iradəsindədir. Bu gün şərəfli peşəyə sahiblənən siz gənc əsgərlərə güvənərək ata-babalarınızın yazdığı salnamələri təkrarlamağı arzulayıram.

Əfqanıstan Veteranları İctimai Birliyinin Gəncə şəhər filialının sədri Elbrus Allahverdiyev qeyd etdi ki, bu mötəbər gündə ordu həyatına ilk qədəmlərini qoyan gənc əsgərlərimiz millətinə və xalqına daim sadiq olacaq, torpaqlarımızın müharibə yolu ilə işğaldan azad olunacağı təqdirdə düşmənin cavabını artıqlamasıyla verəcəklər.

Hərbi andı qəbul edən gənc əsgər Kənan Həbibzadə əsgər yoldaşlarının adından hər bir kəsə təşəkkürünü bildirdi. "Bu gün biz gənc əsgərlər Hərbi andı içib, ordu sıralarında hərbi xidmətimizə başlayırıq. Vətən şərəfi hər şeydən ucadır. Məhz şərəfli yolun yolçusu olduğum üçün bu gün qürurluyam. Şərəfli vəzifəni yerinə yetirən ordusu ilə xalq fəxr edir. Biz də öz növbəmizdə hərbin sirlərinə dərindən yiyələnməyə çalışacaq, biliklərimizi təkmilləşdirəcək, öz üzərimizdə daim çalışacaq, intizamlı olacaq, əsgər adını daim uca tutacağıq. Sadalanan vəzifələrin hər birinə nail olub valideynlərimizə və komandirlərimizə başucalığı gətirəcəyik."

M.C.Paşayev adına 39 nömrəli məktəbdən təbrikə gələn ibtidai sinif şagirdləri də gənc əsgərlərimizi təbrik edərək, şeir ərməğanlarını mərasim iştirakçılarına təqdim etdilər.

Tədbir hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi ilə başa çatdı.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 26 Fevral - Xocalı faciəsi

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Xocalı faciəsinə dair nəşr olunmuş vəsaitlərdən, dövri mətbuatda çap olunmuş materiallardan, həmin faciənin iştirakçılarının xatirələrindən istifadə etməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Xocalı faciəsi ərəfəsində bölgədə yaranmış ictimai-siyasi vəziyyət.**

**2. 26 Fevral - Xocalı faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi.**

**3. Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması. Xocalının qisasını Azərbaycan əsgəri almalıdır.**

### *Xocalı faciəsi ərəfəsində bölgədə yaranmış ictimai-siyasi vəziyyət*

Xocalı şəhəri Azərbaycan tarixinə ən dəhşətli və faciəli şəhərlərdən biri kimi daxil olub. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb. Azərbaycanlılar tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən törədilmiş kütləvi qırğınlarla müşayiət olunub.

Ermənilərin "Böyük Ermənistan" dövləti yaratmaq məqsədi daşıyan cəfəng planlarını həyata keçirmək üçün XX əsrin axırında azərbaycanlılara qarşı törətdikləri ən qanlı cinayətlərdən biri, azərbaycanlıların kütləvi soyqırımı - Xocalı faciəsidir.

1989-1990-cı illərdə keçmiş Sovet İttifaqının bir çox respublikalarında milli silahlı qüvvələrin yaradılması tələbi ilə mitinqlər keçirilirdi. Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) erməni separatçıları yaranmış vəziyyətdən bacarıqla istifadə edərək, "azərbaycanlılar Qarabağın erməni əhalisinə təhlükə yaradırlar" bəhanəsi altında DQMV-dən hərbi xidmətə çağırılan erməni gənclərinin SSRİ silahlı qüvvələrinin o zaman vilayətdə yerləşən hərbi hissələrində, Stepanakertdəki (indiki Xankəndidə) 366-cı alayda və Martunidəki (indiki Xocavənd) sərhəd dəstəsində xidmət keçmələrinə nail oldular. Beləliklə, Azərbaycan ərazisində (keçmiş DQMV-də) sovet ordusunun bazasında Azərbaycanın ərazi bütövlüyünə birbaşa təhlükə yaradan erməni silahlı dəstələrinin yaradılmasının ilkin mərhələsi başlandı.

1991-ci ilin noyabrında SSRİ rəhbərliyi daxili qoşunları yerləşdikləri respublikaların rəhbərliyinə tabe etmək haqqında qərar qəbul etdi. Ancaq Azərbaycanda yerləşən daxili qoşun hissələrinə rabitə qurğularını sökmək, rabitə avadanlıqlarını, silah və texnikanı respublikadan çıxarmaq tapşırığı verilmişdi. Buna baxmayaraq, Qarabağın dağlıq hissəsindən 1991-ci ilin dekabrında çıxan daxili qoşun hissələri silahları və texnikanı erməni dəstələrinə qoyub gedirdilər. 1991-ci ildə Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadıqları bir çox yaşayış məntəqələri ermənilər tərəfindən işğal olundu. 1991-ci il hadisələri Dağlıq Qarabağ ətrafında gedən proseslərin mahiyyətini açdı. Azərbaycan Ermənistan tərəfindən gizlədilməyən təcavüz faktı qarşısında qaldı.

1992-ci ildə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət daha da gərginləşdi. Rusiyapərəst siyasət yeridən Azərbaycan prezidenti Ayaz Mütəllibov respublikanın MDB çərçivəsində Moskvanın maraqları orbitində qalmasına çalışır və milli ordunun yaradılmasını ləngidirdi. Bunun nəticəsidir ki, 1992-ci ilin əvvəllərində Azərbaycan Ordusu tam silahlanmamış iki tabordan (təxminən 300 nəfər), yaxşı təlim keçməmiş, vahid komandanlığı olmayan DİN, MTN, XTMD bölmələrindən, yerli özünümüdafiə qüvvələrindən və müxtəlif partiyaların könüllülərindən təşkil olunmuş dəstələrdən ibarət idi. Bu şəraitdə erməni silahlı dəstələrinin şəxsi heyəti sayca azərbaycanlılardan çox olmasa da, daha yaxşı təşkil olunmuş, silahlanmış və təlim keçmişdi.

Artıq 1992-ci ilin fevralında Dağlıq Qarabağda mərkəzin köməyi ilə silahlandırılmış, Azərbaycanın ərazisində işğalçı müharibə aparmağa qadir erməni ordu bölmələri var idi. Bu dövrdən etibarən ermənilər Dağlıq Qarabağın tərkibində və ondan kənarda azərbaycanlılar yaşayan iri yaşayış məntəqələrinin işğalı planının həyata keçirilməsinə başladılar. Ermənistanla quru yol əlaqələri olmayan Qarabağ erməniləri ancaq hava yolu ilə kömək ala bilərdilər. Ona görə də ermənilər Qarabağda tələsik yeni vertolyot meydançaları hazırlayır, Gorus-Stepanakert (indi Xankəndi) və Gorus-Hadrut reysləri təşkil olunurdu. Vəziyyətə tam nəzarət etmək, eləcə də bütün istiqamətlərdə maneəsiz hərəkət etmək və Dağlıq Qarabağda olan yeganə aeroportu ələ keçirmək üçün Xankəndi ilə Əsgəran arasında yerləşən, azərbaycanlıların yaşadıqları Xocalı şəhərini ermənilər ələ keçirməli idilər.

### *26 Fevral - Xocalı faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi*

Xocalı Qarabağ hadisələri başlamazdan əvvəl içindən Ağdam-Şuşa və Əsgəran-Xankəndi yolları keçən bir qəsəbə idi. 1988-ci ilə olan məlumata görə, qəsəbədə 2135 nəfər adam yaşayırdı. Dağlıq Qarabağda yeganə təyyarə meydanı da burada idi. 1988-ci ildə Ermənistandan qovulmuş azərbaycanlıların və Fərqanədən qaçmağa məcbur olan Ahıska türklərinin bir hissəsi də Xocalıda məskunlaşmışdılar. 1991-ci ilin ortalarında artıq burada 6300 insan yaşayırdı. Həmin ilin axırında ermənilərin şəhərə hücumlarından sonra əhalinin bir hissəsi Xocalını tərk etdi. Respublika MTN-nin məlumatına və digər sənədlərə əsasən faciəli fevral hadisələri ərəfəsində şəhərdə 3 mindən bir qədər çox adam qalmışdı. 1991-ci ilin oktyabrından Xocalı ilə avtomobil nəqliyyatı əlaqəsi kəsildi. 1992-ci il yanvarın 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırıldı. Azərbaycanla ancaq hava yolu ilə, vertolyotlar vasitəsilə əlaqə saxlanılırdı. Axırıncı mülki vertolyot yanvarın 28-də gəldi. Son dəfə fevralın 13-də hərbi vertolyot ərzaq və yanacaq gətirdi. Ermənilər tərəfindən edilən aramsız hücumlara, Azərbaycan rəhbərliyinin Xocalının taleyinə biganə münasibətinə baxmayaraq, əhali öz tarixi Vətənini tərk etmək istəmirdi. Şəhər mühasirədə yaşayırdı, ancaq təslim olmurdu.

1992-ci il fevralın 26-sı Azərbaycan tarixinə ən qanlı səhifələrindən biri kimi yazıldı. Fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri MDB-nin 366-cı alayının köməyi ilə Xocalı şəhərini işğal edərək dağıtdılar və yerli əhaliyə qarşı əsl genosid aktı törətdilər. Erməni yaraqlıları 366-cı alayın zabit və əsgərlərinin köməyilə şəhəri tanklarla və digər zirehli texnika ilə mühasirəyə alıb, bu qədim diyarın dinc əhalisini kütləvi şəkildə qırmağa başladılar. Xocalının müdafiəçiləri sayca qat-qat üstün, yaxşı silahlanmış, tankların və digər zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənin qarşısını almaq üçün fədakarlıqla döyüşdülər və dinc əhalinin şəhərdən çıxa bilməsinə şərait yaratdılar. Şəhərin müdafiəçiləri bu qeyri-bərabər döyüşdə öz mövqelərindən geri çəkilmədilər, onlardan bir çoxu əsl qəhrəman kimi döyüşdə həlak oldu. Təəssüf ki, döyüşçülərimizin qanı bahasına şəhərdən çıxmağa müvəffəq olan dinc əhalinin çox az hissəsi xilas ola bildi. Şəhərdən çıxanlar ermənilərin pusqularına düşərək 1000 nəfərdən çox insan yaralandı, 1275 nəfər əsir düşdü. Bu dəhşətli gecədə 613 nəfər öldürüldü və onların meyitləri də təhqirlərə məruz qaldı.

Bu günlər Xocalı faciəsinin 28-ci ildönümü tamam olur. Xocalı faciəsində həlak olanların xatirəsi hər bir Azərbaycan vətəndaşı üçün əziz olmalıdır. Hər il fevralın 26-da bu dəhşətli faciəni yad edən hər bir azərbaycanlı ermənilərin vəhşiliyini unutmamalıdır. Lakin biz Xocalı faciəsini tarixi hadisə kimi yadda saxlamaqla kifayətlənməməliyik. Xocalı faciəsi azərbaycanlıların qəlbinə qorxu, ermənilərin üstünlüyünə inam hissləri səpməməli, əksinə, qisasçılıq hisslərini alovlandırmalıdır. Biz yaddan çıxartmamalıyıq ki, o müdhiş gecədə həlak olan vətəndaşlarımızın, qocaların, qadınların, uşaqların, əsir düşmüş, alçaldıcı təhqirlərə məruz qalmış, namusu tapdalanmış qız-gəlinlərin qisası hələ alınmayıb. Ümummilli lider Heydər Əliyevin dediyi "Azərbaycan milləti aciz millət deyildir. Azərbaycan gənci erməni gəncindən aciz deyil, gücsüz, cəsarətsiz deyil, əksinə, azərbaycanlılar daha qüdrətli, güclü və cəsarətlidirlər. Ancaq bu insanı, bu gənci müharibə etməyə, silahdan istifadə etməyə öyrətmək lazımdır" fikirləri bir daha sübut edir ki, azərbaycanlılar, hər bir Azərbaycan vətəndaşı və hər bir Azərbaycan gənci düşməndən qisas almağa qadirdir.

### *Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması. Xocalının qisasını Azərbaycan əsgəri almalıdır*

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması istiqamətində məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə qayıtdıqdan sonra başlanılmışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımına ümumi qiymət verilərək fevralın 26-sı "Xocalı Soyqırımı" günü elan edilmişdir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırmışdır. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində beynəlxalq ictimaiyyətə çatdırılması nəticəsində planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olublar. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala, Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin "soyqırımı" aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 21 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər. 2010-cu il yanvarın 31-də İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İƏT Pİ) Uqandanın paytaxtı Kompala şəhərində keçirilən və 51 ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi VI forumun təşəbbüsü ilə "İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu ilə İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı arasında əməkdaşlıq haqqında" qətnamə imzalanmışdır. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu ildə 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsi "müharibənin cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətlənə bilən xüsusilə ağır əməllər" olduğunu müəyyən edib.

"Xocalıya ədalət" kampaniyasının fəaliyyətinin bu il 12 ili tamam olur. Bu müddət ərzində kampaniyanın qarşıya qoyduğu məqsədlərə çatmaq üçün İKGF (İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu) müxtəlif səviyyədə geniş iş aparmışdır. Bu baxımdan Xocalı soyqırımına beynəlxalq səviyyədə hüquqi siyasi və mənəvi qiymətin verilməsinə nail olmaq üçün Gənclər Forumu faciəni beynəlxalq sənədlərdə insanlığa qarşı cinayət və soyqırımı kimi tanınmasını kampaniya çərçivəsində əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir.

Soyqırımın tanıdılması və qətliama siyasi qiymət verilməsi istiqamətində görülən işlər artıq daha ciddi nəticələr verməkdədir. Belə ki, Xocalı soyqırımı Türkiyədə, Rusiyada, Almaniyada, ABŞ-da, Ukraynada, Qazaxıstanda, Gürcüstanda, Küveytdə və dünyanın bir çox ölkələrində qeyd edilmişdir. 2005-2007-ci ilin fevralında Türkiyə Böyük Millət Məclisinin xüsusi iclasında Xocalı soyqırımı ilə bağlı məsələ müzakirə olunmuşdur. 2011-ci il fevralın 19-dan 26-dək Türkiyənin ayrı-ayrı şəhərlərində "Xocalı həftəsi" adlı tədbirlər proqramı çərçivəsində müxtəlif anım mərasimləri, aksiyalar keçirilmiş və bu tədbirlər hər il davam etdirilir. Dünyanın bir sıra şəhərlərində də artıq bu tədbirlər geniş miqyas almışdır.

Azərbaycan torpaqlarının 20 faizi düşmən tərəfindən işğal edilib. Həmin torpaqların düşməndən azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü daxili və xarici siyasət aparılır. Bu siyasət Azərbaycanın ərazi bütövlüyünün bərpasına yönəldilib. Cənab Prezident öz çıxışlarında dəfələrlə qeyd edib ki, dövlətçiliyimizi qorumaq, torpaqlarımızı düşməndən azad etmək üçün Azərbaycanın güclü ordusu olmalıdır. Ordu quruculuğunu daim öz diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusu qarşısında hər an torpaqlarımızı azad etmək üçün hazır olmaq vəzifəsini qoymuşdur. Ali Baş Komandanımız Ermənistan-Azərbaycan münaqişəsi haqqında danışarkən demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır. Xocalı faciəsində, eləcə də ermənilər tərəfindən törədilmiş digər cinayətlərdə həlak olmuş soydaşlarımızın qisasını, ancaq Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə almaq olar.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Fiziki hazırlıq*

# Sağlamlıq həyat rəhnidir!

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlıq məşğələsi ilə yaxından tanış olduq. Hərbi hissənin ərazisində müxtəlif idman alətləri, səliqəli futbol və voleybol meydançalarından savayı, beynəlxalq standartlara cavab verən yeni idman qurğuları ilə təchiz olunan idman otağı diqqətimizi cəlb edir. İdmanla məşğul olan əsgərlərin çevik hərəkətlərini izlədikcə zövq alırsan. Hər biri idmançı görkəminə malik, çevik və çəlddir.*

Günün nizam qaydasına uyğun olaraq şəxsi heyətlə fiziki hazırlıq məşğələsini keçən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Eşqin Qəfərov əsgərlərimizin fiziki cəhətdən yüksək səviyyədə olduqlarını, verilən komandaları cəld və çevik yerinə yetirdiklərini, keçirilən yarış və estafetlərdə bir sıra uğurlara imza atdıqlarını bildirdi. "Qüvvə və sürət, dözümlülük və məharət, zirəklik və qələbə əzmi məhz gərgin mübarizə şəraitində gerçəkləşir. Keçirilən məşğələlərin köməyi ilə əsgərlərimizin sağlamlığı, gücü, iradəsi, silah və döyüş texnikasına yiyələnməsi və ondan döyüşdə səmərəli istifadə etmə qabiliyyəti təkmilləşdirilir. Bu gün yarışlarda gərgin mübarizə şəraitinin nəticəsidir ki, əsgərlərimiz fiziki cəhətdən yüksək səviyyədədirlər. Onların hər biri istənilən an düşməni məhv etmək gücündədir. Beləliklə, dərslərin sayəsində əsgərlərimiz sağlamlığın möhkəmləndirilməsində, mətinlik və müntəzəm fiziki inkişafın əldə olunmasında, dərə-təpəli ərazidə piyada hərəkət zamanı və sıçrama yürüşlərində, təbii və süni maneələrin dəf olunmasında, düşmənlə üz-üzə gəldikdə əlbəyaxa döyüşdə məhv etməkdə köməklik edir."

- Fiziki hazırlıq ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətlərindən biri olmaqla, onun mühüm və ayrılmaz hissəsidir. Qüvvətli və dözümlü hərbi qulluqçu istənilən tapşırığı uğurla icra edir. Hər idman növü müəyyən dərəcədə dözümlülüyü artırır. Torpaqlarımızın işğaldan azad edilməsində müasir silah və texnika ilə yanaşı, onları idarə edə bilən fiziki cəhətdən hazırlıqlı hərbi qulluqçular əvəzedilməzdir. Bunun üçün onlar müxtəlif çalışmaları yerinə yetirməli, hərbi-tətbiqi idman növləri



ilə məşğul olmalıdırlar. Müntəzəm idmanla məşğul olan hərbi qulluqçuda fiziki keyfiyyətlər inkişaf edir, yeni hərəkət vərdişləri formalaşır, hərəkətlərin koordinasiyası yaxşılaşır və nəticə etibarilə sağlamlığı möhkəmlənir. Şəxsi heyətin hazırlıq səviyyəsinə biz komandirlər cavabdehik. Hər bir komandir tabeliyində olanların döyüş qabiliyyətinin yüksəldilməsi üçün fiziki çalışmaların bütün forma və vasitələrindən istifadə etməli, səhər və axşam kompleks məşğələlər, kütləvi idman işi təşkil olunmalıdır. Rəhbərliyin göstərdiyi diqqət və qayğı nəticəsində hərbi hissəmizdə fiziki hazırlıq üçün hər cür şərait yaradılıb. Bunu görən əsgərlərimiz əllərindən gələni edirlər ki, özlərini doğrultsunlar. "Kafi" yox, "əla" nəticələr əldə etməli üçün hər zaman çalışırlar. Onların hər biri ilə qürur duyuram. Fəxr edirəm ki, tabeliyimdə bu cür mərd, cəsur və güclü əsgərlər xidmət edirlər.

Əsgərlərimizin fiziki cəhətdən hazırlıqlı olmaları onların tapşırıqları qısa müddət ərzində yerinə yetirmələrindən hiss olunurdu. Daha fəal olanlar hərəkətlərin düzgün və səlis yerinə yetirilməsi qaydalarını digərlərinə göstərirdi. Lazım olduqda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Eşqin Qəfərov da izah edirdi, öyrədirdi.

Əsgər Zöhrab Kərimov söhbət zamanı bildirdi ki, fiziki hazırlıq bir sıra tədbirlərlə yanaşı, xəstəliklərin azalmasına da səbəb olur. "Təbii amillərdən istifadə edib müntəzəm surətdə keçirilən idman təlimi bədənimizin hərtərəfli inkişaf etməsinə müsbət təsir edir. Nəticədə orqanizmimizdə gedən bütün fizioloji proseslər təkmilləşir, əhval-ruhiyyəmiz yaxşılaşır, cəsarət, güc, özünəinam keyfiyyətlərimiz artır. Belə bir məşğələni bizlərə keçən komandirlərimizə minnətdaram. Onların nəzarəti altında biz bütün idman hərəkətlərini düzgün yerinə yetirərək, sağlamlığımızı qoruyur, hər gün daha güclü, qüvvətli, iradəli və dözümlü oluruq".

Zöhrabla söhbətimiz zamanı öyrəndim ki, o altı il idmanın cüdo növü ilə məşğul olub. Bir çox uğurlara imza atıb. 2012-ci ildə keçirilən Bakı çempionatının qalibi olub. 2016-cı ildə isə respublika çempionu adına layiq görülüb. Əsgər onu da qeyd etdi ki, hərbi xidmətdən tərxis olduqdan sonra idmanla mütəmadi olaraq məşğul olacaq, bayrağımızı hər zaman yüksəklərdə dalğalandıracaq.

Əsgər Əli Məmmədov da Zöhrab kimi idmanın cüdo növü ilə bir neçə il məşğul olub. 2012-ci ildə keçirilən respublika çempionatını gümüş medalla başa vurub. Əlinin arzusu işğal altında olan torpaqlarımız uğrunda gedən döyüşlərdə iştirak edib, düşməndən qisas almaqdır. Sonra isə cüdo idman növü üzrə dünya və Avropa çempionatının qalibi olub, Azərbaycanımızın üçrəngli bayrağını ən yüksəklərdə dalğalandırmaq, Dövlət himnimizi səsləndirməkdir. Biz də Əli kimi onun bu iki arzusunun tez bir zamanda həyata keçəcəyinə inanırıq. Əsgər bildirdi ki, xidmətdə hərbi bilikləri, döyüş və atəş hazırlığı ilə yanaşı, dözümlülüyü, möhkəmliyi, vətənpərvərliyi öyrənirsən. Keçirilən ictimai-siyasi hazırlıq dərslərində tariximizi, ədəbiyyatımızı, folklorumuzu öyrənirik. Biliklərimiz daha da zənginləşir. Daha təcrübəli və peşəkar əsgər oluruq. "Əsgərlik dövründə hər gün səhər və axşam bizlərə fiziki hazırlıq məşğələsi keçirilir. Bunun sayəsində dözümlü, inamlı, çevik, güclü oluruq. Hərbi xidmətdən əvvəl idmanla az məşğul olurdum. Bir çox hərəkətləri etməkdə çətinlik çəkirdim. Komandirimin və əsgər yoldaşlarımın dəstəyi ilə hər gün idmanla ciddi məşğul olmağa başladım. İndi normativləri və tapşırıqları sərbəst və vaxtında icra edirəm. Əminliklə deyə bilərəm ki, ordu sıralarından tərxis olduqdan sonra belə fiziki hazırlığıma diqqət yetirəcəm".

Əsgərlər İlkin Abbasov, Rəhman Məmmədzadə, Murad Əliyev və digərləri də fiziki hazırlığın əhəmiyyətindən danışdılar, komandirlərin onlara hər zaman diqqət və qayğı ilə yanaşdıqlarını da dedilər.

Bir daha əmin olduq ki, əsgərlərimiz yüksək fiziki hazırlığa malikdirlər. Bu amil torpaqlarımızın işğaldan azad ediləcəyinə inamımızı daha da artırır. İnanırıq ki, mərd oğullarımız Azərbaycan xalqına Qələbə sevincini yaşadacaqlar. Xankəndidə, Laçında, Kəlbəcərdə... üçrəngli bayrağımızı dalğalandıracaqlar.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Tank əleyhinə ALAC qumbaraatanı



Tank əleyhinə ALAC əl qumbaraatanı Braziliya ordusunun tapşırığı ilə 1990-cı ilin əvvəlində Müdafiə Nazirliyinin tədqiqat-layihə institutu və ordunun texnoloji mərkəzi (CTE.x.) ilə birlikdə hazırlanıb. Layihə müxtəlif səbəblər üzündən dəfələrlə dayandırılıb və yenidən işlənilib. Sonda isə 2006-cı ildə CTE.x. mərkəzi GESPİ şirkətinin iştirakı ilə İndusrtia de Material do Brazil (İMBEL) ordu müəssisəsi tərəfindən hazırlanıb. 2007-ci ildə ALAC qumbaraatanının uğurlu sınağı həyata keçirilib. 2014-cü ildə isə silahın hazırlanması işi başa çatıb. ALAC qumbaraatanı 84 mm-lik kalibrlidir. Onun çəkisi 7,7 kiloqram, reaktiv qumbarasının kumulyativ döyüş hissəsinin çəkisi isə 2,4 kiloqram təşkil edir. Zireh deşməsi 300 mm-dən çoxdur. ALAC tank əleyhinə qumbaraatanın effektli



atəş uzaqlığı 300-500 metrə qədərdir. Uzunluğu 1020 mm, qumbaranın ilkin sürəti saniyədə 240 metrdir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə və Rusiya nümayəndə heyətləri İdlibdəki vəziyyətə dair müzakirələri davam etdirirlər



Rusiya Xarici İşlər nazirinin müavini Sergey Verşininin və Prezident Vladimir Putinin Suriya məsələləri üzrə xüsusi nümayəndəsi Aleksandr Lavrentiyevin daxil olduğu nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.

Hərbçilərdən və təhlükəsizlik qüvvələri əməkdaşlarından ibarət heyət Ankarada İdlib böhranına dair fevralın 9-da başlanan müzakirələri davam etdiriblər.

Türkiyə Milli Müdafiə Nazirliyinin, Milli Təhlükəsizlik Təşkilatının (MİT), Silahlı Qüvvələrin Baş Qərargahının nümayəndələrindən ibarət heyətə Xarici İşlər nazirinin müavini Sedat Önal başçılıq edir. Nümayəndə heyətlərinin görüşlərində Suriyanın İdlib bölgəsindəki hazırkı vəziyyət müzakirə olunub.

Xatırladaq ki, Türkiyə Silahlı Qüvvələrinin Suriyanın İdlib bölgəsində antiterror əməliyyatı aparan hissələri yenidən hücuma məruz qalıb. Top atəşləri nəticəsində beş hərbçi şəhid olub, beşi yaralanıb.

### Misir ordusu Sinay yarımadasında 10 terrorçunu öldürüb




Misir ordusu terrorçuların Sinay yarımadasında silahlı hücumunun qarşısını almaq məqsədilə hərbi əməliyyat həyata keçirib. Saatlarla davam edən atışma nəticəsində İŞİD-lə əlaqəli olan 10 terrorçu məhv edilib.

Bu barədə Misir Silahlı Qüvvələrinin sözçüsü Tamer əl Rəfayi məlumat verib. Onun sözlərinə görə, terrorçu qruplaşmanın hücumları dəf edilib və onların dörd texnikası sıradan çıxarılıb. Döyüşlərdə Misir ordusunun beş əsgəri də həlak olub.

Tamer əl Rəfayi bildirib ki, ordu və polis qüvvələri bu ərazidə kök salmış terrorçu qruplaşmanın zərərsizləşdirilməsi üçün hərbi əməliyyatları davam etdirəcəklər. O əlavə edib ki, təhlükəsizlik qüvvələri təkcə Sinayda deyil, Misirin bütün ərazisində terrorizmin kökünü kəsmək niyyətindədir.

### İran yeni nəsil raket silahını təqdim edib



İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) uzaq hədəfləri vurmaq üçün istehsal olunan yeni nəsil raketi təqdim edib.

"Raad" adlanan yeni silah ötən il təqdim edilən "Fatih" raketinin əsasında yaradılıb.

Təqdimat mərasimində SEPAH-ın komandanı general Hüseyn Səlami raket haqqında ətraflı məlumat verməyib. General nəzərə çatdırıb ki, yeni raket 200 kilometr məsafədəki hədəfləri dəqiqliklə vurmaq imkanına malikdir.

Yeni raket SEPAH-ın Hava Hücumundan Müdafiə Qüvvələrinin sərəncamına verilib.

General bəyan edib ki, İranın Ali Rəhbərinin tövsiyəsinə uyğun olaraq, İran ordusu ildən-ilə arsenalını təkmilləşdirir.

### Ermənistan ordusunun əsgərləri qar uçqunu altında qalıblar



Yanvarın 7-də saat 17:02 radələrində Zəngəzur vilayətində (Syunik) Ermənistan silahlı qüvvələrinin hərbi hissələrinin birində 4 nəfər müqaviləli əsgər qar uçqunu altında qalıblar. Axtarışlar zamanı onlardan üçünün meyiti tapılıb, biri isə müxtəlif bədən xəsarətləri alıb. Ölənlər sıravi əsgər Karapet Nazaryan, kiçik serjantlar Tiqran Arzumanyan və Nvre Çahbazyandır. Sağ qalan isə sıravi əsgər Hamlet Mirzoyandır.

**AZƏRTAC-ın
materialları əsasında**

# “Vətənini sev, Torpağını qoru”



*Səngərlərdə zabit və əsgərlərlə səmimiyyətlə söhbət edirsən. Gördüklərindən, eşitdiklərindən məmnun qalırsan, mövqelərdən xoş ovqatla ayrılırsan.*

Səngərə şərti başlanğıc bildiyimiz yerdə əsgərlərə ünvanlanmış və böyük hərflərlə yazılmış sözlər bizə də könül xoşluğu verdi: "Vətənini sev, Torpağını qoru, Ananı sev. Mərd ol! Sevdiklərinə sahib olmaq üçün, onları qorumaq üçün sərvaxt ol! Gücünü, qüdrətini, döyüş hazırlığını daim artır. Düşməni məhv etməyə, qələbə qazanmağa hazır ol..."

Bir-birini tamamlayan bu sözlər onu oxuyan hər kəsin qəlbini riqqətə gətirir, ona döyüş əzmi, qələbə ruhu aşılayır. Vətənə məhəbbət, düşmənə nifrət hissini artırır.

Mövqedə 2016-cı ilin Aprel döyüşlərində şəhid olanların xatirəsinə ucaldılan abidə də diqqətimizi çəkdi. Həcmcə kiçik olan bu abidədə dünyəvi bir amal, bir məqsəd, bir istək var. Torpaq uğrunda şəhid olanları daim hörmətlə anmaq, xatirələrini ehtiramla yad etmək.

Abidənin qarşısı çəmənləşdirilib, gül-çiçək əkilib. Əkilmiş güllər şəhidlərin arzuları, istəkləri kimi çiçəkləyib.

16 şəhidin adı həkk olunmuş mərmər lövhəyə baxıram. Onların yaşları, rütbələri müxtəlif olsa da, hamısı bir amal uğrunda - torpaqlarımızın azadlığı uğrunda şəhid olublar. Ön mövqedə belə məzmunlu, gərəkli abidəni inşa edənlərə minnətdarlıq hissi ilə şəhidlərin xatirəsini ehtiramla yad edirik. Səngərdə belə dəyərli bir abidənin qoyulması çox ibrətamizdir, şəhidlərə böyük ehtiramın ifadəsidir. Döyüşə, qələbəyə çağırışdır. Mövqedə dayanan əsgərlər hər gün abidənin qarşısında ayaq saxlayır, şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edirlər. Döyüşlərdə qələbə qazanacaqlarına söz verirlər.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**



# Gənclər Milli Qəhrəmanın məzarını ziyarət ediblər

Azərbaycanın Milli Qəhrəmanı Firudin Şamoyevin doğum günü ilə əlaqədar olaraq Qazax Gənclərin İnkişaf və Karyera Mərkəzinin təşkilatçılığı ilə könüllülər və fəal gənclər şəhidin məzarını ziyarət ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, gənclər Qazax şəhər qəbiristanlığında qəhrəmanın məzarı üzərinə gül dəstələri qoyub, ona ehtiramlarını bildiriblər.

Qeyd edək ki, F.Şamoyev 1962-ci il fevralın 7-də Qazax şəhərində anadan olub. 1991-ci ildə könüllülərdən ibarət dəstəyə yazılan Firudin hərbi hissədə minaatan bölüyün komandiri vəzifəsinə təyin edilib. Qazaxın Bağanıs Ayrım, Məzəm, Quşçu Ayrım və digər kəndlərinin müdafiəsində xüsusi qəhrəmanlıq göstərib. 1992-ci il aprelin 13-də Quşçu Ayrım kəndi ətrafında gedən ağır döyüşdə qəhrəmancasına həlak olub. Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Şamoyev Firudin İsa oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Qazax şəhər 4 saylı tam orta məktəbi qəhrəmanın adını daşıyır.

*Nümunəvi xidmət*

# “Vətən qarşısında məsuliyyətimizi dərk edirik”

Müasir dünyada nəqliyyat spesifik sahə kimi dövlətlərarası iqtisadi proseslərdə mühüm əhəmiyyət daşıyır. Nəqliyyat hər hansı bir məhsul istehsal etməsə də, təyinat funksiyasından asılı olaraq vətəndaşlara, cəmiyyətə, bütövlükdə dövlətə mühüm və zəruri xidmət göstərir.

Azərbaycan Ordusunda nəqliyyat fəaliyyət prosesinin mühüm sahələrindən biri kimi xarakterizə edilir.

Ön xətdə yerləşən "N" hərbi hissəsinin nəqliyyat strukturu ilə maraqlandıq. Zabit Xalid Abışov bildirdi ki, nəqliyyat hərbi hissənin hərəkətliyinin, həyat fəaliyyətinin əsas təminatçısıdır. "Bu təminat əldə olunmadan orduda inkişafdan danışmaq mümkün deyil. Müasir dövrdə təhlükəsizliyimizin və hərtərəfli inkişafımızın qarantı Azərbaycan Ordusudur. Bu gün ordumuz müharibə vəziyyətində olan ölkəmizin təhlükəsizliyində mühüm rol oynayır. Torpaqlarımızı işğalda saxlayan düşmənlərimizə qarşı hər an döyüş əməliyyatlarının başlanma ehtimalının olduğu bir dövrdə hərbi nəqliyyat da mühüm əhəmiyyət kəsb edir".



Zabitin sözünə qüvvət olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Vüsal Nəbiyev qeyd etdi ki, Azərbaycan Ordusunun şəxsi heyətinin nəqliyyat tələbatının ödənilməsi, şəxsi heyətin daşınmalarının həyata keçirilməsi məhz avtomobil nəqliyyatının müntəzəm fəaliyyət göstərməsindən əhəmiyyətli dərəcədə asılıdır. “Avtomobil nəqliyyatının ahəngdar işi isə təbii ki, Azərbaycan Ordusunun gündəlik fəaliyyətini etibarlı şəkildə təmin edir.”

Söhbətimiz soyuq bir qış gününə təsadüf etdiyindən hərbi qulluqçu bu fasilədə nəqliyyatı idarəetmənin xüsusiyyətlərindən və çətinliklərindən də söz açdı. "Soyuq havalarda avtomobillərin mühərrikinin hərəkətli parçalarında olan aşınmalar yüksək səviyyədə olduğundan akkumlyatora daim diqqət yetirmək lazımdır. Bəzi sürücülər elə başa düşürlər ki, radiator heç vaxt donmur. Bu, səhv fikirdir. Radiatorda antifrizin miqdarı kifayət qədər deyilsə, radiatorla yanaşı, mühərrik də dona bilər.”

V.Nəbiyev onu da dedi ki, soyuq havalarda palçıq və yola səpilən duz mühərrikə zərər vurduğu üçün avtomobil tez-tez yuyulub təmizlənməlidir. "Avtomobili yumazdan öncə kobud buz və palçığın təzyiqli suyla təmizlənməsi lazımdır. Soyuq havalarda yanacaq daha tez bitir. Yəni, avtomobillər soyuq havada daha çox yanacaq sərf edir. Bunun səbəbi isə soyuq mühərrik yağının axıcılığını itirməsi və mühərrik içi müqavimətləri artırmasıdır. Buna görə də qış aylarında mühərrik və elektrik kabellərinə nizamlı olaraq baxmaq lazımdır.”

- Mən sürücü olmaqla yanaşı, hərbi qulluqçu olduğumu da yaddan çıxarmıram. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi nümunəvi, intizamlı olmaqla yanaşı, Vətən qarşısındakı borcumun məsuliyyətini də dərindən dərk edirəm", - deyə həmsöhbətim sözünə davam etdi. - Vətənimizin dilbər guşəsi olan Dağlıq Qarabağ uzun illərdir ki, işğal altındadır. Şuşa, Xankəndi, Xocalı və digər yurd yerlərimiz bu gün də öz sakinlərini gözləyir. Bəzən yuxuda görürəm ki, idarə etdiyim avtomobillə Şuşanı, Xankəndini gəzirəm. İnanırıq ki, tezliklə həsrətini çəkdiyimiz, yuxularımızda qonaq olduğumuz torpaqlarımızı reallıqda görəcəyik.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## “Judo Club 2012”nin karateçisi Avropa çempionu olub



Macarıstanın paytaxtı Budapeştdə yeniyetmə və gənclərin 47-ci, 21 yaşadək karateçilərin isə 12-ci Avropa birinciliyində Azərbaycan komandası böyük nailiyyətlərə imza ataraq 8 medal qazanıb.

Avropa birinciliyində "Judo Club 2012"nin yetirməsi Fərid Ağayev (76 kq) də uğurla çıxış edib. Qitə birinciliyində mübarizə aparan klubun təcrübəli karateçisi F.Ağayev Serbiya, İtaliya, Kosovo və Makedoniya idmançılarını məğlub edərək finala yüksəlib. Həlledici görüşdə türkiyəli rəqibi Yaman Alpereni də üstələyən Fərid Ağayev Avropa çempionatının qızıl medalına layiq görülüb. Fərid Ağayevin əldə etdiyi bu qələbədə "Judo Club 2012"nin karate bölməsinin rəhbəri Gündüz Mahmudov və məşqçi Namiq Pirverdiyevin böyük əməyi var.

## Azərbaycan boksçuları beynəlxalq turnirdə 8 medal qazanıblar



Qazaxıstanın Ust-Kamenoqorsk şəhərində yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib. Yarışda ev sahibləri ilə yanaşı, Azərbaycan, Özbəkistan, Monqolustan və Qırğızıstan yığmaları da qüvvələrini sınayıblar.

Turnirə baş məşqçi Vaqif Kazımovun rəhbərliyi altında 12 boksçu ilə qatılan milli komandamız 3 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıb.

Yığmamızın heyətində Kamil Babayev (52 kq), Zaur Qəhrəmanov (57 kq) və Murad Məhərrəmov (75 kq) bütün rəqiblərinə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Finalda məğlub olan Tural Sarıyev (50 kq) isə ikinci yeri tutub. Digər boksçularımız - Elgün Babayev (48 kq), Taci Tağızadə (57 kq), Rza Rzazadə (70 kq) və Nicat Qurbanov (66 kq) bürünc medalla kifayətləniblər. Təmsilçilərimizdən çempion tituluna yiyələnən Zaur Qəhrəmanov daha bir nominasiyada mükafatlandırılıb. Astara boks məktəbinin yetirməsi turnirin ən texnikalı boksçusu seçilib.

## Atletimiz Balkan çempionatında gümüş medal qazanıb



Azərbaycan atleti Rüstəm Məmmədov İstanbulda keçirilən 20 yaşadək idmançılar arasında IV Balkan çempionatında gümüş medal qazanıb. Atletimiz üç təkanla tullanma növündə 15,36 metr nəticə göstərərək ikinci yeri tutub.

Turnirdə atletlərimiz yeniyetmələrdən ibarət milli komandanın baş məşqçisi Nazim İsrafilovun rəhbərliyi altında mübarizə aparırlar.

## Şahmatçımız İranda beynəlxalq festivalın B turnirində ikinci yeri tutub



İranın Çabahar şəhərində təşkil olunan şahmat festivalının A (masters) və B (U 2000) turnirlərində sonuncu - doqquzuncu turun oyunları keçirilib. Sonuncu turda da Azərbaycan şahmatçılarının rəqibləri İran təmsilçiləri olub.

Festivalın B turnirində mübarizə aparan Xatun Bağırova Esmaeel Mohammedian ilə qarşılaşmanı qələbə ilə başa vurub. Azərbaycan şahmatçısı 9 turdan 7 xal toplayaraq turnirdə ikinci yeri tutub. A turnirində şahmatçılarımızdan Azər Mirzəyev Masud Mosadeqpoura məğlub olub, Habil Cavadov Carullah Badqisi üzərində qələbə qazanıb. A.Mirzəyev 5 xalla yeddinci, H.Cavadov isə 3,5 xalla 19-cu yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 55
Nüsxə 3900